# Ağsaqqallar atıcılıq klubu ilə tanış oldular

Qəbələ təkcə ecazkar təbiəti ilə deyil, həm də dağ vüqarlı el ağsaqqalları ilə öyünən yurddur. Onlar bu qədim Qəbələnin qoynunda xoşbəxt ömrünü yaşayır, gün-güzəranlarından razılıq edirlər. Bizim rayonun ərazisində yaşayan ağsaqqallar eyni zamanda cəmiyyətdə gedən inkişaf proseslərində fəal iştirak edir, özlərinin bilik və təcrübələrindən bəhrələnmək üçün gənc nəsillər arasında körpü yaradırlar. Bizim ahıllara, ağsaqqallara cavanlar da, böyüklər də hörmətlə yanaşır, fikirləri ilə hesablaşırlar. Son illər rayonumuzda ağsaqqalların problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək əməli tədbirlər görülür, onların arzusu və istəyi ilə müxtəlif xeyriyyə, mədəni-kütləvi tədbirlər həyata keçirilir. Əlbəttə, həmin tədbirlərin həyata keçirilməsində və gənc nəsillərlə ağsaqqallar arasında körpü yaradılmasında rayon ağsaqqallar şurasının xeyirxahlığı və əməyi danılmazdır. Rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev tez-tez ağsaqqallarla görüşür, onların arzu və təkliflərini dinləyir, əhvalını xəbər alır, onlarda xoş ovqat yaratmağa çalışır, onlar üçün bayram süfrələri təşkil edir. Söhbət əsnasında ağsaqqallardan Əhəd Lətifov, Fərrux Əkbərov, Eyyub Əhmədov, Qurban Ziyadov, Ziyəddin Yusifov, Süleyman Mehdiyev, Şirin Şirinov, Nurəddin Şirinov və digərləri məhz ağsaqqallar şurasının fəaliyyətindən razılıq söylədilər.



Nazim Mustafayevin təşkilatçılığı ilə ağsaqqallar vaxtaşırı rayonun, o cümlədən şəhərin gəzməli-görməli yerlərinə ekskursiyaya aparılır, ağsaqqallar rayonumuzun bölgələrində aparılan tikinti, abadlıq işləri ilə tanış olurlar.

Belə səfərlərdən biri də Novruz bayramı öncəsi Qəbələ atıcılıq klubu ilə tanışlıq daha maraqlı oldu. Bu gəzintiyə iki mikroavtobus cəlb olunmuşdu. Qəbələ atıcılıq klubunun yeni tikintiləri, tikilmiş yolları, idman qurğularını görmək ağsaqqallara xoş təsir göstərdi. Burada klubun işçiləri ağsaqqalları hörmətlə qarşıladılar, lazımi məlumat verdilər, suallarını cavablandırdılar.

Klubun məsləhətçisi Mehman Novruzov ağsaqqalları öncə Novruz bayramı münasibətilə təbrik etdi. Sonra qeyd etdi ki, klubun inzibati binası xüsusi memarlıq üslubunda inşa olunub, binada qeydiyyat bölməsi, iclas və məşğələ otaqları, atəş zonasındakı nəticələri müşahidə etmək üçün zal yaradılmışdır. Klubda idman silahlarından istifadə etmək üçün xüsusi qaydalar da müəyyən edilmişdir. Atəş zonasında silahlar boşaldıqdan sonra təhvil alınacaqdır. Klubun ərazisində təhlükəsizliyin təmin olunması məqsədilə müşahidə kameraları və yanğından mühafizə məntəqələri qurulmuşdur. Ərazidə ayrıca bayraq meydançası da yaradılmışdır. Bundan əlavə klubun ərazisində 1200 kvadratmetr sahədə 10 metrlik, 3 min kvadratmetr sahədə isə 25 metrlik tirlər quraşdırılmışdır. Ümumilikdə 4,5 hektar ərazidə beş dairəvi və səngər stend atıcılığı meydançası, 4 min kvadratmetr sahədə səkkiz sportinq meydançası və silah anbarı inşa edilmişdir. Burada quraşdırılan avadanlıqlar Fransadan, İngiltərədən, İsveçrədən və İtaliyadan gətirilmişdir.

Beləliklə, ağsaqqallar Qəbələ atıcılıq klubu inşasının başa çatdırılan birinci mərhələsində görülən işlərlə tanış oldular və Cənubi Qafqazda analoqu olmayan belə bir atıcılıq klubunun yaradılmasına görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlıq bildirdilər.

**Əliş AĞAYEV,**
**Qəbələ şəhər sakini.**

# Novruz yarmarkasından alıcı da razı qaldı, satıcı da

Mart ayının 16-da Qəbələ şəhər Ticarət Mərkəzinin yaxınlığında kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olundu. Bu yarmarkanın Qəbələ şəhərində Novruz bayramı qabağı təşkili həm sahibkarlara kömək, həm də alıcıları ucuz və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin etmək məqsədini daşıyırdı. Həmin gün rayonun ayrı-ayrı qəsəbə və kəndlərindən, hətta Bakı, Mingəçevir və Şəki şəhərlərindən yüzlərlə fermer təsərrüfatları, sahibkarlar və fərdi şəxslər öz məhsullarını sərbəst olaraq yarmarkaya gətirə bilmişdilər. Bunun üçün rayon icra hakimiyyəti və əlaqədar qurumlar yarmarkada istehsalçılara və istehlakçılara əlverişli alış-veriş şəraiti üçün geniş imkanlar yaratmışlar.

Rayon icra hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Rahib Əhmədov yarmarkanın təşkilinə, onun qaydasına və burada satılan məhsulların qiymətlərinin adi bazarda satılan məhsullardan ucuz qiymətə satılmasına nəzarəti gücləndirmiş, yarmarkada süni qiymət artımına yol verilməmişdir. Digər ticarət obyektləri ilə müqayisədə yarmarkada məhsullar 20-30 faiz ucuz satılmışdır. Ona görə də satış yarmarkasında həmin gün bazardan fərqli olaraq istehlakçıların sayı qat-qat artıq idi və yarmarkadakı həm məhsulların keyfiyyətindən, həm də qiymətlərdən razılıq edirdilər.





Aparılan təhlillər göstərir ki, gün ərzində yarmarkada ət, yağ, süd, quş əti, soğan, tərəvəz, meyvə məhsulları daha çox satılmışdır.

Həmin gün yarmarkaya bir min kiloqram mal əti, bir min kiloqram quş əti, 300 kiloqram bal, 36 ton quru meyvə, 45 ton kartof-soğan, 15 ton yaş meyvə və xeyli süd və ət məhsulları çıxarılmışdır. 60 yük maşını ilə gətirilmiş həmin məhsulların demək olar ki, gün ərzində təxminən 70—80 faizi satılmışdır. Yarmarkada «Elşad» MMC-nin və Nic quşçuluq broyler fabrikinin sahibkarları, Nic, Bum, Vəndam qəsəbələrinin, Zarağan, Mirzəbəyli və digər kəndlərin fərdi təsərrüfatla məşğul olan vətəndaşları fəal iştirak etmiş, ən keyfiyyətli kənd təsərrüfatı məhsullarını yarmarkaya gətirmişlər. Yarmarkada ərzaq istehsalı ilə məşğul olan yerli sahibkarların da iştirakı təmin edilmişdi. Bu yarmarka istehsalçının alıcı ilə birbaşa ünsiyyəti üçün şərait yaratmışdır. Burada satıcıların hər biri üçün yer ayrılmış, hər bir satıcı elektron tərəzi ilə təmin olunmuşdu. Yerli icra strukturları istehsalçıların alıcılarla birbaşa ünsiyyətinə çalışırdı. Sanitar-gigiyena qaydalarına riayət edilməsinə xüsusi əhəmiyyət verilirdi.

Qəbələ şəhər sakini, ağsaqqal ziyalı Əliş Ağayev işin bu cür təşkilindən razılıq etdi. Dedi ki, burada qiymətlər təkcə ucuzluğu ilə seçilmir, ən başlıcası alış-veriş yarmarkasının təzə və keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasıdır. Təmizliyə, sanitariya qaydalarına ciddi əməl olunur.

Bayramsayağı təşkil edilmiş satış yarmarkasında Nic qəsəbə mədəniyyət evinin zurnaçılar dəstəsinin ifa etdikləri milli oyun havaları yarmarkaya gələnlərdə xoş əhval-ruhiyyə yaradırdı.

Novruz bayramı şərəfinə təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkası günün axırınadək davam etdi və bazardan fərqli olaraq burada daha çox qaynarlıq duyulurdu.

Təbii ki, xidmətin bu cür təşkili istehsalçı ilə bərabər alıcını da qane edirdi. Hər iki tərəf yaradılan şəraitdən razı qalırdı.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**